# ZƏRBƏCILƏR.

Dun şevk ilə mə'dənləri qəzdiq;
Çok bakdь byryglar bizə diq-diq
Bilməm nijə dyrmyşdy byryglar;
Dolsyn dijə bir anda ojyglar,
Şən zərbəcilər mə'dəni sardь.
Mə'dəndə nəjut azlьgь vardь.
Incitdi by azlьg bizi, dərhal,
Ətrafda coşyb quqrədi avral.
Bir janda nəut akmada bom boş
Bir işci otyrmyş qibi sərxoş,
Heç bir şejə bakmazdь; nihajət,
Verdi ona bir zərbəli təhmət.
Bir qyşədə alat-sənaji'
Qərduq çurujub olmada zaji.
Bir həmlədə biz onlarь aldьk
Jatmьşlarь, koşdyk işə saldьk.
Toz-topragьn altьndaqь əşja
Canlandь; - edilmiş qib ihja
Bir çok sьnьk alətləri jьgdьk,
Hajlazlarь səzlərlə acьtdьk.
Bir joldaşьmьz səjlədi birdən:
- Kalsьnmь nişan qəhnə qəsirdən
Nəft olmasa fabriq necə işlər?
Nəft olmasa qetməz ənə işlər!
Nəft olmasa quqrərmi traktor,
Atlan, byny kolxozcyja qet sor.
Nəft olmasa kajnarmь zavodlar,
Parlarmь ocaklardaqь odlar?
Nəft olmasa qəzlər necə kajnar,
Sevdalь jurəqlər nasьl ojnar?
Nəft olmasa toplar atьlьrmь,
Nəft olmasa kaşlar çatьlьrmь,
Xaricdə coşan dyşmana dogry?
Kajtargy dilər bəncə, by sorgy.
Nəft olmasa işlərmi Zaqeslər
Parlarmь şəfək rənqli qəquşlər?
Nəft olmasa akşam, səhər olmaz
Ərlər koca fabriqlərə dolmaz!
Beş illiji jarsьnda bitirməq
Hər ənqəli şiddətlə dəvirməq
Əlbət by qunun oglyna baglь,
Əlbət bəna baglь, sana baglь,
ona baglь!

M. Muşfik.